**Respublika.** - 2024.- 24 oktyabr. - № 234. - S. 6.

# Almaniya səfirinin müavini: Azərbaycanın uğurlu COP keçirməsini istəyirik

***Hər gün artan çağırışlar, risklər, siyasi böhranlar, münaqişələr fonunda Azərbaycanın dünya miqyasında mühüm nəqliyyat qovşaqlarından birinə çevrilməsi artıq danılmaz reallıqdır. Ölkəmizin təşəbbüskarı olduğu çoxsaylı nəqliyyat layihələri bu gün enerji təhlükəsizliyinin təməli hesab oluna bilər. Onların sırasında Şərq-Qərb, Şimal-Cənub, Orta Dəhliz kimi daha çox tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunu qeyd etmək olar. Belə ki, Çindən Türkiyəyə və eləcə də Avropa ölkələrinə və əks-istiqamətdə yük daşımalarının artırılmasına xidmət edən Orta Dəhliz üzrə hərəkət edən blok qatarı orta hesabla 20-25 günə yükləri çatdırır. Bu da nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biridir.***

Orta Dəhliz ilə bağlı fəallığın artması nəqliyyat və logistika sahəsində dayanıqlı göstəricilərin əsasını təşkil edir. Bu marşrutun perspektivləri dünyada artan geosiyasi gərginlik fonunda getdikcə daha cəlbedici görünür. Bu dəhliz dəmir yolu, dəniz və avtomobil nəqliyyatını birləşdirən müxtəlif logistik həllər təklif edir. Dəmir yolu daşımalarının sabitliyi və xarici amillərdən daha az asılılığı bu nəqliyyat növünü biznes üçün daha cəlbedici edir. Orta Dəhlizin tranzit ölkələrə gətirə biləcəyi gəlir müzakirə mövzusu olaraq qalır. Ölkəmizin nəqliyyat sektorunda nailiyyətləri barədə Almaniya Federativ Respublikasının Azərbaycandakı səfirinin müavini Hayko Şvarts ilə söhbət etdik.

**– Azərbaycanın regionda və dünyada artan nəqliyyat potensialı nöqteyi-nəzərindən perspektivlərini necə görürsünüz?**

– Azərbaycanın regionda nəqliyyat qovşağı rolunu oynamaq üçün olduqca böyük bir potensialı var. Burada məlum Orta Dəhliz layihəsi var ki, son illərdə və aylarda onun potensialı getdikcə konkretləşir. Azərbaycan qonşu ölkələrlə əməkdaşlıq edərək malların və nəqliyyatın sərhədləri keçməsini asanlaşdırıb. Hesab edirik ki, Orta Dəhliz dedikdə, sadəcə nəqliyyat, məsələn, hansısa malların Çindən Avropaya daşınması haqqında düşünməməliyik, çünki bu dəhliz, eyni zamanda regionun özündə əlavə dəyərin yaranmasına rəvac verir. Orta Dəhliz regionda rifah və dəyər zəncirləri yaratmağa kömək edir. Bundan başqa, bu nəqliyyat marşrutunun xalis sıfır emissiyalı variant olmaq potensialı var, ona görə ki, Orta Dəhliz boyu nəql tamamən "yaşıl enerji" ilə qidalana bilər. Biz bunu artıq Azərbaycanda və Qazaxıstanda görürük. Yəni xüsusilə COP29 kontekstində deyə bilərik ki, Orta Dəhliz, həmçinin iqlim dəyişmələrinin qarşısının alınması məsələsinə bağlıdır. Potensial, doğrudan da, olduqca nəhəngdir.

**– Bir neçə gündən sonra ölkəmiz COP29 iqlim konfransına ev sahibliyi edəcək. Bu baxımdan, Almaniya "yaşıl enerji" gündəmi ilə əlaqədar hansı təcrübəsini bizimlə bölüşə bilər?**

– Almaniya iqlim dəyişməsi ilə mübarizədə aparıcı ölkələrdən biridir. Azərbaycanın COP29 konfransına ev sahibliyi etməsi ötən ilin dekabrında elan edildikdən sonra iqlim dəyişməsi məsələləri üzrə danışıqlarda Almaniyanın nümayəndə heyətinin rəhbəri Azərbaycana səfər edən ilk yüksək səviyyəli rəsmi nümayəndə idi. Bu səfər artıq yanvar ayında baş tutdu. Sizə onu deyə bilərəm ki, konfransın uğurlu olması üçün biz çox yaxından əməkdaşlıq etmişik. Bildiyiniz kimi, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının baş ofisi Almaniyada yerləşir və biz də COP konfranslarının təşkilində yaxından işbirliyi edirik. Bu mövzu bizə qəlbən yaxındır - biz həqiqətən də inanırıq ki, bu mübarizədə bütün dünya bir araya gəlməlidir. Beləliklə, biz Azərbaycanın uğurlu COP keçirməsini istəyirik. Onu deyə bilərəm ki, Almaniyadakı həmkarlar Azərbaycanın gördüyü tədbirlərdən çox təsirləniblər. Azərbaycan nisbətən qısa zamanda COP tədbirinə keyfiyyətlə hazırlaşır.

"Yaşıl enerji"nin roluna gəldikdə, bu, Almaniya üçün əsas məsələlərdən biridir. Biz enerji keçidi prosesini icra edirik, Azərbaycan da indi buna fəal şəkildə qoşulub. Yəni biz anlamalıyıq ki, iqlim dəyişməsi sadəcə əlavə xərc yaradan məsələ deyil, eyni zamanda böyük biznes fürsətləri açan istiqamətdir. "Yaşıl enerji"nin potensialı olduqca böyükdür və biz tərəfdaşları bir araya gətirə bilsək, hesab edirəm ki, bu, iqlim dəyişmələri ilə mübarizədə böyük ümidlərə yol açar. Bunun üçün bizə sadəcə siyasətlər və hökumətlər deyil, şirkətlər və bizneslər də lazımdır ki, birləşib uğurlu həllərə töhfə versinlər. Bu səbəbdən, zənnimcə, hamımız bu işdə rol oynamalıyıq.

**Söhbət etdi:**
**Aygün İbrahimova**